# Qadın adını və ləyaqətini uca tutan lider

## Müstəqillik dövründəki ilk qadınlar qurultayının 25 illiyi "Heydər Əliyev ili"nə düşür



**Hesab edirəm ki, bu qurultay XX əsrdə Azərbaycanın tarixində ən böyük tarixi hadisələrindən biridir. Azərbaycan qadınları bu qurultayla müstəqil Azərbaycanda gələcəyin qadın hərəkatının əsasını qoyublar, qadınların cəmiyyətdə fəallığının, onların cəmiyyət və dövlətin həyatında iştirakının əsasını qoyublar. Siz bunun əsasını qoymusunuz, böyük iş görmüsünüz. Bu münasibətlə mən sizi ürəkdən təbrik edirəm.**

**Ulu öndər Heydər Əliyevin Azərbaycan Qadınlarının I Qurultayındakı nitqindən**

**Bakı, 14 sentyabr 1998-ci il**



**"Heydər Əliyev və dövlət qadın siyasəti" mövzusunda qələmə almaq istədiyimiz bu sətirləri Ulu öndərin Qəbələyə ikinci gəlişi zamanı şahidi olduğum faktları xatırlatmaqla başlamaq istəyirəm. Belə ki, Ümummilli lider 2002-ci ildə Şəki şəhərinə səfəri zamanı yolüstü əvvəl Vəndam qəsəbəsində, sonra isə rayon mərkəzində dayanmış, onun görüşünə toplaşan camaatla olduqca səmimi söhbət etmişdir.**

Həmin söhbətlərin yaddaqalan məqamlarından biri də böyük liderin qısa, amma tarixi ünsiyyət zamanı qəbələli qadınlara hörmət və ehtiramla yanaşdığının şahidi olmağımız idi. O zaman dostlarımızdan biri yazmışdı ki, Heydər Əliyevin qəbələli qadınlarla ünsiyyət zamanı nümayiş etdirdiyi səmimiyyət tarixi faktdır. Başqa bir qələm sahibi isə əlavə etmişdi ki, Ulu öndər təkcə qəbələli qadınlarla deyil, ümumiyyətlə, dünyanın harasında olursa-olsun, qadınlarla söhbət, təmas zamanı möhtəşəm bir səmimiyyət və başqa siyasətçilər üçün bəlkə də əlçatmaz olan ehtiram nümayiş etdirirdi.

Onun bir ifadəsi daim mənim, deyə bilərəm ki, həm də bütün xanımlarımızın yadındadır. Çünki həmin fikirdə Azərbaycan qadınına çox böyük qiymət verilirdi: "Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür, onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi, indi də cəmiyyətdə aparıcı rol oynayırlar".

Qətiyyətlə deyə bilərik ki, ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsinin və dövlət səviyyəsinə qaldırılmasının məhz Heydər Əliyevin adı ilə bağlı olması danılmaz tarixi bir faktdır. O, qadınların idarəetmə, qərar qəbuletmə və sosial həyatın bütün sahələrində irəli çəkilməsini daim vacib məsələlərdən biri kimi qabardırdı. Azərbaycanda qadın hüquqlarının qorunması, təbliğ olunması, onlara yüksək imtiyazların verilməsi, qadınların dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində iştirakının artırılması Heydər Əliyev siyasətinin ayrılmaz tərkib hissələrindən olmuşdur.

Bu zaman daha bir tarixi faktın yada salınmasına ehtiyac var. Ulu öndər ötən əsrin 90-cı illərində dəfələrlə xatırlatmışdı ki, müasir müstəqil Azərbaycan dövləti əsrin əvvəlindəki Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. O cümhuriyyətin ki, bir çox Avropa ölkələrindən 20-25 il əvvəl qadınlara seçib-seçilmək hüququ vermişdir. Unutmaq olmaz ki, Heydər Əliyev təkcə dövlət müstəqilliyimizi bərpa edəndən sonra deyil, elə sovet rejiminin ən güclü olduğu dönəmdə – 1969-82- ci illərdə – respublikamıza birinci dəfə rəhbərlik edəndə də gender məsələsini daim gündəlikdə saxlamış, qadınların cəmiyyətin bütün sferalarında irəli çəkilməsinə nail olmuşdu. Nazir, deputat və müxtəlif icra strukturlarının rəhbərləri arasında xanımların sayının artırılması tendensiyasının təməli məhz həmin illərdə qoyulmuşdu.



Yadımdadır, Ulu öndər qadınların I qurultayındakı nitqində demişdi ki, indi Azərbaycan qadını səhiyyədə işləyənlərin 70 faizini, təhsildə, maarifdə işləyənlərin 50-60 faizini, mədəniyyətdə işləyənlərin 70 faizini təşkil edir: "Ancaq təsəvvür edin, əsrin əvvəlində bunların heç biri yox idi. Bəli, biz XX əsrin əvvəlində, yaxud da XIX əsrin sonunda Azərbaycan qadınlarının savadlı, bilikli, mədəniyyətə qovuşmuş, dünya mədəniyyətini mənimsəmiş tək-tək nümayəndələrini tanıyırıq, bilirik. Ancaq indi səhiyyə sistemində həkimlərin 70 faizi qadınlardırsa, əsrin əvvəlində bir nəfər də qadın həkimimiz yox idi. Təsəvvür edin, qısa bir tarixi zamanda nə qədər sıçrayış əmələ gəlibdir. Bu, təkcə səhiyyə, təhsil sahəsində deyildir. Həyatın bütün sahələrində mühəndis, iqtisadçı, başqa ixtisaslardan olan nə qədər qadın var. Əsası isə ondan ibarətdir ki, qadınlar savad, bilik alıblar, elmə, mədəniyyətə qovuşublar".

Mən Ulu öndərin həmin tarixi nitqindən daha bir iqtibas gətirmək istəyirəm. Çünki bu gün Azərbaycan Ordusu dünyanın ən güclü silahlı qüvvələri sırasındadır. Ümummilli liderimiz 25 il əvvəl sanki bugünkü Azərbaycan həqiqətlərini gördü: " Mən sizə xüsusi minnətdarlığımı bildirirəm, ona görə ki, siz Azərbaycan Ordusunun yaranmasında böyük işlər görmüsünüz. Sizin övladlarınız, gənclər indi Azərbaycan Ordusunun əsasını təşkil edirlər... Bu, böyük bir işdir. Biz böyük ordu yaratmışıq və yaradırıq. Əmin ola bilərsiniz, Azərbaycanın Milli Ordusu yaranıb formalaşıbdır və indi Azərbaycan dövlət müstəqilliyini, ərazilərini qorumağa qadir bir ordudur. Bu sahədə qadınların xidməti böyükdür. Mən sizə xüsusi təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz, Azərbaycan qadınları Azərbaycan Ordusunu daha da gücləndirmək, inkişaf etdirmək, daha da qüdrətli etmək üçün bundan sonra da gözəl insanlar yetişdirəcəksiniz. O insanlar tərbiyəli, vətənpərvər olacaqlar, Vətən yolunda həlak olmağa hazır övladlar olacaqlar. Mən əminəm ki, siz bu işdə də öz xidmətlərinizi göstərəcəksiniz".

Bəzi qələm sahibləri belə ifadələri "peyğəmbərcəsinə səsləndirilmiş fikir" adlandırırlar. Böyük fəxr və iftixarla əlavə edirik ki, azərbaycanlı qadınların tərbiyə etdiyi mərd və cəsur əsgərlər torpaqlarımızın düşmən əsarətindən azad olunmasını təmin ediblər. Şəhid analarına baş əyir, qazi analarının qüruruna şərik oluruq.

Fəxr etməli olduğumuz başqa bir məqam isə ondan ibarətdir ki, politoloq və ekspertlər Ümummilli liderimizin qadınlarla bağlı məsələlərin həlli üçün imzaladığı mühüm fərman və sərəncamlar qadın hüquqlarının reallaşması və təminatı istiqamətində irəliyə doğru atılmış tarixi addımlar kimi qiymətləndirirlər. O, daim vurğulayırdı ki, dövlət quruculuğunun bütün mərhələlərində xüsusi xidmətləri olan Azərbaycan qadınları ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün bu gün də var qüvvələrini sərf edirlər.

Fikrimizi bir az da konkretləşdirmək üçün deyə bilərik ki, ulu öndər Heydər Əliyev 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılması haqqında" fərman imzalamışdır. Bu sənəd hər mənada qadınların fəallığına, cəmiyyətdə öz yerlərini tutmalarına kömək olmuşdur. Heydər Əliyevin 2000-ci ildə imzaladığı "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman isə ölkədə qadın siyasətinin daha da güclənməsinə gətirib çıxarmışdı. 2000-ci ilin iyun ayında Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı"nı qəbul etmişdir.

Bəli, bu gün Azərbaycanda lider qadınlar, sahibkar qadınlar zümrəsi yetişmişdir. Hökumətdə, nazirliklərdə, Milli Məclisdə qadınlarımızın fəallığı artmaqda davam edir. Bu kimi müsbət nəticələrin əldə olunmasında Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə qadın hüquqlarının qorunması üçün bir çox qanunlar qəbul etməsi, fərman və sərəncamlar imzalaması, beynəlxalq təşkilatlara üzv olaraq mühüm sənədlərin ölkəmizdə tətbiq olmasını reallaşdırmasındakı rolu danılmazdır. Azərbaycan qadınları cəmiyyətin dinamik inkişafı istiqamətində həyata keçirilən irimiqyaslı layihələrdə öz fəallığı ilə seçilirlər.

Məhz həmin siyasətin nəticəsidir ki, bu gün Azərbaycanın Birinci vitse-prezidenti də, parlamentin sədri də də məhz zərif cinsin nümayəndələridir. Onu da vurğulamaq lazımdır ki, ulu öndərimizin adını daşıyan Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilmiş çoxsaylı beynəlxalq tədbirin bir neçəsi məhz qadınlarla bağlı olmuş, azərbaycanlı xanımların beynəlxalq qadın hərəkatına yeni töhfələr verməsini təmin etmişdir.

Biz – Azərbaycan qadınları fəxr edirik ki, bugünkü qüdrətli dövlətimizin tərəqqisində ölkəmizin xanımlarının da böyük payı vardır. Dövlətimizi və cənab Prezidenti əmin edirik ki, Azərbaycan qadını Vətənimizin daha da qüdrətləndirilməsini təmin edən Heydər Əliyev siyasi kursunu bundan sonra da daim dəstəkləyəcək və xalqımızın qazanacağı yeni uğurların iştirakçısı olacaqdır.

***Sədaqət BAYRAMOVA,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyəti Qəbələ rayon bölməsinin sədri***